

# Zəngəzur dəhlizi: Şərqlə Qərbin yeni körpüsü

**Cənubi Qafqazda gərginliyin davam etməsi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin perspektivlərini qeyri-müəyyən saxlayır. Beynəlxalq birliyin və Azərbaycanın çağırışlarına baxmayaraq, rəsmi İrəvanın mövqeyində tərəddüdlər müşahidə olunur. Zaman-zaman müsbət siqnallar verilsə də, dayanıqlı sülh üçün hələ də həllini gözləyən vacib məsələlər var.**

Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycanın deyil, bütün regionun maraqlarına xidmət edir. Üçtərəfli Bəyanatın 9-cu bəndində dəhlizin açılması öz əksini tapıb. Bu, Zəngəzurdan keçən yolun maneəsiz olması anlamına gəlir. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru yolunun bərpası böyük tarixi və iqtisadi əhəmiyyətə malikdir.

**(davamı 9-cu səhifədə)**

# Zəngəzur dəhlizi:
# Şərqlə Qərbin yeni körpüsü

**(əvvəli 1-ci səhifədə)**

Bu layihə Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcək, ölkəmizi Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevirəcək. Artıq Azərbaycan geniş nəqliyyat infrastrukturunu formalaşdırıb, beynəlxalq daşımalar üçün mühüm marşrutlar məhz bizim ərazimizdən keçir. Zəngəzur dəhlizi bu bağlantını daha da gücləndirəcək və yeni iqtisadi perspektivlər yaradacaq.




Azərbaycan regionda sabitliyin və inkişafın təminatçısıdır. Dövlət başçısının iradəsi və qətiyyəti bu layihənin uğurla icra olunmasını şərtləndirir. Mövcud geosiyasi reallıqlar da göstərir ki, bu proses qaçılmazdır. Zəngəzur dəhlizinin açılması, regional əməkdaşlığın genişlənməsi və yeni iqtisadi layihələrin həyata keçirilməsi bölgənin gələcəyini müəyyən edən əsas amillərdəndir. Azərbaycan bu tarixi missiyanı uğurla yerinə yetirməkdə davam edir.

Azərbaycan regionun lider dövləti kimi mühüm proseslərdə hər zaman diktə edən tərəf rolunda çıxış edir. Xüsusilə, Zəngəzur dəhlizi kimi qlobal əhəmiyyət daşıyan layihənin reallaşması təkcə ölkəmiz üçün deyil, bütün region üçün strateji önəm daşıyır. Ermənistanın bu layihəyə qarşı laqeyd yanaşması isə nəinki özünü, hətta Avropa və Asiya ölkələrini də vacib bir marşrutdan məhrum edir. Halbuki, dünya geosiyasi cəhətdən sarsıntılı bir dövrdən keçərkən, ölkələr arasında iqtisadi və ticari əlaqələrin gücləndirilməsi üçün belə nəqliyyat dəhlizləri həyati əhəmiyyət kəsb edir.

Azərbaycan öz üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirərək Zəngəzur dəhlizinin tərkib hissəsi olan avtomobil və dəmir yollarının tikintisini sürətləndirib. Tarixi nəqliyyat marşrutlarının bərpası ticarət dövriyyəsinin genişlənməsi baxımından böyük imkanlar açır. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturu Azərbaycanın Avrasiyanın əsas logistika mərkəzlərindən birinə çevrilməsinə şərait yaradır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat xətlərinin qovuşuğunda yerləşən Azərbaycan bu üstünlüklərini Zəngəzur dəhlizi vasitəsilə daha da möhkəmləndirəcək.

Bu layihənin həyata keçirilməsi yalnız Azərbaycanın daxili nəqliyyat şəbəkəsinin inkişafı ilə məhdudlaşmır. Zəngəzur dəhlizi bütövlükdə regionun geosiyasi və iqtisadi mənzərəsini dəyişəcək. Bir tərəfdən Naxçıvanın quru yolla Azərbaycana birləşməsi təmin olunacaq, digər tərəfdən isə bu marşrut enerji siyasəti və strateji təhlükəsizlik baxımından mühüm rol oynayacaq. Eyni zamanda Zəngəzur dəhlizi Çinin genişlənən iqtisadi nəqliyyat şəbəkəsinə yeni bir alternativ təqdim edəcək. Belə ki, bu yol Çindən Avropaya uzanan ticarət marşrutlarını daha səmərəli hala gətirərək, həm vaxt, həm də maliyyə baxımından daha sərfəli bir alternativə çeviriləcək. Dəhliz, eyni zamanda türk dünyasının nəqliyyat və logistika imkanlarını genişləndirəcək. Azərbaycanın türk dünyası ilə bağlarını gücləndirməyə xidmət edən bu layihə Türkiyə və Azərbaycan arasında strateji əhəmiyyət daşıyan bir marşrut kimi də qiymətləndirilir. Hələ Sovet dövründə ulu öndər Heydər Əliyev Mehridən keçən Naxçıvan-Bakı avtomobil yolunun inşasına dair göstəriş vermişdi. Lakin Ermənistanın kəskin etirazları səbəbindən bu layihənin reallaşması mümkün olmadı. Bu gün isə eyni qüvvələr bu dəhlizin açılmasına mane olmağa davam edirlər. Lakin onlar anlamalıdırlar ki, regionda əməkdaşlığa qarşı çıxmaq yalnız müvəqqəti dividendlər qazandıra bilər, uzunmüddətli perspektivdə isə bu, məğlubiyyətə məhkum bir yanaşmadır.

2023-cü il sentyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qars-Naxçıvan dəmir yoluna dair Niyyət Protokolu imzaladılar. Bununla da nəqliyyat dəhlizinin əsas elementləri müəyyən olundu. Qars-Naxçıvan dəmir yolu xətti Zəngəzur dəhlizinin yükgötürmə qabiliyyətinin formalaşması üçün nəzərdə tutulur. Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti təkcə Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmək məqsədi daşımır. Bu layihələr Avropa ilə Asiyanın ticarət əlaqələri üçün olduqca əlverişlidir. Azərbaycan və Türkiyə hökumətləri layihənin iqtisadi, siyasi əhəmiyyətini nəzərə alıb onun reallaşdırılmasını mümkün qədər sürətləndirməyə çalışırlar. Xatırladaq ki, layihənin birinci mərhələsində 2020-ci il fevral ayının 25-də "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu" imzalanmışdır. Hazırda Qars-Naxçıvan dəmir yolu layihəsinin tikintisinə yönəlmiş texniki hazırlıqlar davam edir və texniki-iqtisadi əsaslandırma hesabatı təsdiqlənmişdir. Dəmir yolu 224 kilometr uzunluğunda və 5 stansiyadan ibarət olacaq. Saatda 160 kilometr sürət üçün nəzərdə tutulan dəmir yol xətti üzərində uzunluğu 638 metr olan 10 körpü, 18 kilometr uzunluğunda 465 suötürücü, ümumilikdə 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid tikiləcək. Layihənin 5 il müddətində başa çatdırılması nəzərdə tutulur. Zəngəzur dəhlizi ilə bağlı digər vacib məqam onun Cənubi Qafqaz regionu, eləcə də Uzaq Şərq, Mərkəzi Asiya və Avropa üçün əhəmiyyətidir. Aşqabad müqaviləsi bu dəhliz vasitəsilə, ölkələri Avropa ilə ticarət mübadiləsini daha da genişləndirəcək. Belə ki, Aşqabad müqaviləsi Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanıb. Beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizi vasitəsilə Avrasiya bazarlarına çıxarılması 30 illik işğal səbəbilə Azərbaycanın zəif inkişaf etmiş Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafına böyük təkan verə bilər.

Azərbaycan Ermənistanın qeyri-konstruktiv mövqeyinə baxmayaraq, bu layihəni reallaşdırmaqda qərarlıdır. Ötən il Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında İran və Azərbaycan arasında yeni nəqliyyat bağlantısının yaradılmasına dair imzalanan memorandum çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük məntəqəsinin inşasına start verilib. Regionun geoiqtisadi reallıqları dəyişir və Zəngəzur dəhlizi bu dəyişikliyin ən mühüm elementlərindən birinə çevrilir.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika.- 2025.- 27 fevral (№ 44).- S.1;9.